

*Xəyalə SEVİL*

## DURUB GÜZGÜYƏ BAXDIM

Durub güzgüyə baxdım,
Əl gəzdirdim saçıma.
Dedim ki, "innən belə,
Bir də göz yaşı olmaz".
...Bapbalaca ümidlə
Bu boyda xəyal quran
Məndən başqası olmaz.
Sonra səni düşündüm,
Sonra sən deyənləri.
Bir xəfif külək əsdi
Onda könlümdən bəri.
Gördüm ki, sən duyduğun
Mən duyduğum hiss deyil.
Nəfəs bilib sevdiyin
Əslində həvəs idi,
Mənimki həvəs deyil.
Axşam düşdü pəncərəmə
Gec oldu, gecə oldu.
Ürəyim də qısaldı,
Elə sənin adın kimi
İkicə heca oldu.
Nə sən, nə mən,
Nə ikimiz...
Bu eşq
Heç-heçə oldu.

## İSTƏYİRSƏN, YOXLA

Axşam sərin küləyini
Yelləyə üzümə sarı,
Göy üzü də aram-aram
Silkələyə buludları.
Bədənimin ayaq vaxtı
Yolların qonağı olam.
Bir də... Bir də ürəyinin
Açılmayan bağı olam... 20
Tanrının oyaq vaxtına
Düşəm, danışam dərdimi,
Sarı bənizimdən qopan
Bir az qaraşın dərdimi.

Eşidirsənmi, İlahi?!
Açıq qoy pəncərəni,
Qapını bir azca aralı saxla.
Əlimi göyə qaldırıb
Sənə təslim olmuşam.
Üstümdə heç nə yoxdu
Məhəbbətdən savayı,
İstəyirsən, yoxla.

## NƏ VAXTSA BİTƏCƏKDİ…

Nə vaxtsa bitəcəkdi,
Bir az tez oldu, olsun.
Mən də nəsə öyrəndim,
Mənə dərs oldu, olsun.

Ürəyimi gözümə
Süzən deyiləm daha.
Getmisən, seçim sənin,
Küsən deyiləm daha.

Gözlərinə günəş qoy,
Ürəyini qar saxla.
Məndən aldığın ömrü
Götür yadigar saxla.

## ONA NƏ QƏDƏR QALIB?!

Burda hava soyuqlayıb.
Yalın fevral ağacları
Əsir küləyin altda.

Topa-topa buludların
Səsi yağır yollara,
Hərə bir küncdə gizlənib,
Mənsə, ürəyin altda.
Pəncərəmin iç üzünü
Çöl üzünün soğuqluğu ağladır,
Əllərim nəm divar kimi
Tökülür dizlərimə.
Burda göyə baxıram,
Göy də ögeydi mənə.
Eh! Mənim yer dərdimdən
Göyə nə?
Hə... Göyə nə?
Burda hər şey qarışıb,
Burda yollar dolaşıb.
İlahi, bilirsənmi
Sona nə qədər qalıb?
Ürəyim yol üstədi,
Ona nə qədər qalıb?!

## RƏNGLİ DUALAR

Xəyallarım rəngli dualar kimi
Çatacaq göy üzünə.
Bir gün Tanrı eşidəcək səsimi,
Bir gün Tanrı boylanacaq səsimə.

İndi mənə hamı yaddı,
İndi mən hamıya yadam.
Dünya boyda ev-eşikdə
Ev-eşik tapmayan adam.

Gözüm gözləmə salonu,
Başımı qatıb durmuşam.
Bir gün Tanrı gələcək...
Bədənimin sol küncündə
Qırmızı çadır qurmuşam.

## SAĞ OLSUN ÜRƏYİM DƏ

Sağ olsun ürəyim də
Xatırladır özünü.
Hərdən bir sancı tutur,
Elə bil ki, sinəmə
Çıxıb atır özünü.
Tanrı işini bilir,

Göylərimi kuzə verib.
İz itirib qaçıb göyə,
Amma gəl ki, taleyimdə
Özünü biruzə verib.
Sən də məndən uzaq durdun,
Gəlmə, bir də uzaq dur.
Mən özümü
Götürdüm bu oyundan.
Tək oynamaq yasaqdır.

## ÜRƏK XATİRƏNƏ QƏM TORBASIDI

Tüstüsü gözümü yaşardır indi,
Özüm qalamışdım bu ocağı da.
Guya ağlım kəsir, guya böyüdüm,
Sındırıb tulladım oyuncağı da.

Nə yoxsan, nə varsan, baş açammadım,
Ümidim nə yoxa, nə vara qaldı.
Elə hey gözlədim, eh... ara yerdə
Gözlərim yollarda avara qaldı.
Ürək xatirənə qəm torbasıdı,
Nahaq yırğaladım bu boş beşiyi...
Sən kimsən? Özüm də bilmirəm daha,
Heç nəyim, heç kimim, yoxsa, hər şeyim?

## ÜRƏYİMİN AY İŞIĞI

Ürəyimin ay işığı,
Yenə payız vurub məni,
Mənim işim xəzəllədi...
Bu ürək yenə sınacaq,
Düzəltmədin... Düzəlmədi...
Çöləm, yolam, səhrayam,
Daha evcik deyiləm.
Mən səninçün bəzəkli
Bir gəlincik deyiləm.
Çərçivə ürəyimdə
Şəklin çilik-çilikdi.
Şeirim yanağıma
Yazdığım gündəlikdi.